# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## XXI əsrin yeni "Böyük Oyunu"




5


SƏS

№ 058 (7468)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

4 avqust 2026-cı il.
Qiyməti 1 manat


# Ölkəmizin enerji təminatı GÜCLƏNDİRİLİR




2

# "Qisas" əməliyyatından ötən DÖRD İL!




3

## Alqı-satqı müqaviləsi bağlayarkən bu məqamlara mütləq diqqət edin!



8

## "Diplom bir vasitədir, əsas insanın bilik və bacarığıdır"



4

## Quraqlıq dünyanı məhv edir: meşələr yanır, insanlar zəhərlənir



7

## Hərbi canilər haqqında ədalətli hökm veriləcək



7

## 150 balla seçilə biləcək ixtisasların siyahısı açıqlanıb



6




# Ölkəmizin enerji təminatı GÜCLƏNDİRİLİR

## *Prezident "Yeni Səngəçal" yarımstansiyasının açılışını edib*





***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən genişmiqyaslı islahatlar enerji sektorunu da hərtərəfli əhatə edib. Azərbaycanın elektrik enerjisi təsərrüfatında köklü islahatların növbəti mərhələsi uğurla reallaşdırılır, enerji sisteminin etibarlılığının təmin edilməsi və bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər geniş vüsət alıb. Son illərdə çoxsaylı yeni elektrik stansiyalarının və yarımstansiyaların açılışı, mövcudların bərpası ilə yanaşı, bərpaolunan enerjidən istifadəyə də geniş yer ayrılması istiqamətində çox mühüm layihələr icra olunub. Bütün bunlar göstərir ki, hazırda ölkəmizdə enerji sektorunun inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verilir.***

Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "AzərEnerji" ASC-nin 220/110/10 kV-luq "Yeni Səngəçal" yarımstansiyasının açılışında iştirak edib. Bu irimiqyaslı "Yaşıl enerji" layihəsi Cəbrayıl rayonundakı 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının Azərbaycan enerjisisteminə inteqrasiyasını və Səngəçal terminalının ölkənin vahid enerjisistemi vasitəsilə elektrik enerjisi ilə təmin olunmasını nəzərdə tutur. Layihə "AzərEnerji" ASC ilə bp şirkəti arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində icra olunub. İlk mərhələdə "AzərEnerji" tərəfindən Cəbrayıl rayonunda tikilən 330 kV-luq yarımstansiyanın bu ilin mayında Prezident İlham Əliyevin iştirakı ilə açılışı olub. Layihənin növbəti mərhələsi kimi Səngəçal terminalının bərpaolunan enerji ilə təchizatı üçün 220/110/10 kV-luq "Yeni Səngəçal" yarımstansiyası tikilib. Bununla da terminalda fəaliyyət göstərən qazla işləyən elektrik stansiyasının dayandırılması mümkün olacaq. Gələcəkdə Cəbrayıl rayonunda istehsal olunan Günəş elektrik enerjisi ölkə enerjisistemi vasitəsilə Səngəçal terminalına çatdırılacaq. Layihənin icrası nəticəsində terminalın illik təxminən 500 milyon kVt-saat elektrik enerjisi tələbatı bərpaolunan enerji hesabına qarşılanacaq, hər il 120–150 milyon kubmetr təbii qaza qənaət ediləcək, karbon emissiyaları isə 260–330 min ton azalacaq. Ümumi sahəsi 6,5 hektar olan "Yeni Səngəçal" yarımstansiyası 111 kilometrlik dörd yeni 220 kV-luq elektrik verilişi xətti ilə ölkə enerjisisteminə qoşulub. Yarımstansiyanın enerji təchizatı 785 MVt gücündə "Cənub" və 385 MVt gücündə "Qobu" elektrik stansiyaları, həmçinin 500 kV-luq "Abşeron" yarımstansiyası olmaqla, üç müstəqil mənbədən təmin edilir.

### MÜASİR RƏQƏMSAL İDARƏETMƏ

Xatirladaq ki, 44 günlük Vətən müharibəsində işğaldan azad edilən Cəbrayıl rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci "Cəbrayıl" hava xətləri çəkilib. Bir vaxtlar qoşunların təmas xətti olduğundan tamamilə minalanmış yerlərdən keçən xəttin uzandığı ərazi partlamamış sursatlardan təmizlənib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yeni yarımstansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib. O cümlədən 110/35/10 kilovoltluq "Qubadlı" və "Zəngilan" yarımstansiyalarının qidalandırılması məqsədilə Cəbrayıldan çəkilən ikidövrəli ötürmə xətlərinin qoşulması üçün texniki cəhətdən yarımstansiyada lazımi şərait yaradılıb. "Cəbrayıl" yarımstansiyası yeni avadanlıqlarla komplektləşdirilib, burada müasir rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri quraşdırılıb. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-Scada dispetçer idarəetmə sistemi qurulub və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunaraq rəqəmsallaşdırılıb. "Cəbrayıl" yarımstansiyası, ilk növbədə, bu rayonda yerləşən hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastruktur layihələrini, eləcə də rayonun ümumi şəhərsalma konsepsiyasına əsasən, Cəbrayıl şəhərini və bütövlükdə rayonun bütün kənd-qəsəbələrini elektrik enerjisi ilə təmin edir.

Qubadlının Azərbaycanın ümumi enerji sisteminə qoşulması, rayonun dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyasından "Cəbrayıl" yarımstansiyasına giriş-çıxış olmaqla 76 kilometr məsafədə ikidövrəli 110 kV-luq yüksəkgərginlikli "Qubadlı-1", "Qubadlı-2" elektrik verilişi xətti çəkilib. 150-160 MVt gücötürmə qabiliyyətinə malik yeni xətt layihələndirilərkən rayon üçün səciyyəvi iqlim parametrləri – buzlaşma, küləyin maksimal sürəti, qarın qalınlığı, çirklənmə və başqa amillər, o cümlədən baş verə biləcək qəza hallarının qarşısının alınması, lokallaşdırılması üçün zəruri sistem yaradılıb. Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilib və bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilib. İldırımötürücü xəttin içərisində keyfiyyətli internet şəbəkəsi, o cümlədən SCADA dispetçer idarəetmə sistemi informasiyalarının, proqram təminatının, televiziya, telefon, rabitə, müşahidə kamera, canlı bağlantı, mərkəzləşdirilmiş arxiv şəbəkəsinin və başqa məlumatların sinxronlaşdırılması həyata keçirilib.

Qeyd edək ki, Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda 110 kV-luq yeni yarımstansiyalar tikilib. Bütün yarımstansiyalara çəkilən elektrik xətlərində ildırımdan mühafizə və yarımstansiyalararası siqnal mübadiləsi üçün fiberoptik kabellər quraşdırılıb. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin edilib. İşğaldan azad edilən digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb. Qeyd edək ki, işğala qədər 38 min nəfərdən çox əhalisi olan, sənaye və digər təsərrüfat sahələri üzrə Qubadlı rayonunun ümumi tələbatı 12 MVt olmaqla bir ədəd 110 kV-luq yarımstansiyadan qidalanıb. 47 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Qubadlıda inkişaf istiqamətləri nəzərə alınmaqla 2040-cı il üçün elektrik enerjisi tələbatının 38 MVt-dan artıq olacağı gözlənilir.

Görülən işlərin nəticəsidir ki, hazırda Azərbaycan öz daxili enerji tələbatını tam ödəməklə yanaşı, elektrik enerjisini ixrac da edir. Bu işlər ümumilikdə ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsinə xidmət etməklə, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlu nəticələrinin göstəricisi kimi də xarakterizə olunur.

***Zümrüd BAYRAMOVA***

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 466-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Fələstin Dövlətinin Xarici İşlər Nazirliyi arasında Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı Səfirliyinə maliyyə yardımının göstərilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***44 günlük Vətən müharibəsində qazandığımız Zəfər ölkəmizin həyatında yeni bir dövrün başlağıcı oldu və regionda sülhün, təhlükəsizliyin təminatına töhfə verdi. Azərbaycan dəfələrlə bəyan edib ki, müharibədən sonra regionda yeni vəziyyət yaranıb və Ermənistan da yeni yaranmış vəziyyətdə əməkdaşlıqdan faydalana bilər. Ölkəmizin ərazi bütövlüyünün bərpası üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun şücaəti, igidliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu. Azərbaycan ordusu düşməni öz torpaqlarından qovdu.***




# "Qisas" əməliyyatından ötən DÖRD İL!

## *Prezident İlham Əliyev: "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir"*

Cənab Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu?. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq". Azərbaycan bayrağı işğaldan azad olunan torpaqlarımıza sancıldı və bu, hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisə idi.

Artıq Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" əməliyyatından dörd il ötür. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Terror-təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid oldu. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi. Ordumuz Buzdux dağı və ətraf yüksəklikləri azad etməklə həm də hərbi-strateji əhəmiyyətli Ağdaban, Çayqovuşan, Vəngli, Narıştar kəndləri, habelə "Sərsəng" su anbarına viziual nəzarət etmək imkanı qazandı.

### "QİSAS" ƏMƏLİYYATININ ÇOX TƏSİRLİ, ANCAQ QISAMÜDDƏTLİ OLMASI ONU GÖSTƏRİR Kİ, BİZİM GÜCÜMÜZ DƏ YERİNDƏDİR"

"Qisas" cavab əməliyyatı bir daha erməniyə Azərbaycan Ordusunun gücünü göstərmiş oldu. Ermənistan öz çirkin əməllərini davam etdirirək mövcud böhrandan xilas olmaq əvəzinə növbəti təxribatlara əl atırdı. Bildiyimiz kimi, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin avqustun 3-də səhər saatlarında Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərinin intensiv atəşə tutması vəziyyəti qəsdən gərginləşdirmək cəhdi kimi qiymətini almış oldu. Ermənistan yenə də öz ampulasında çıxış edirdi. Bu kimi təxribatlar törətməklə Azərbaycanı da cavab tədbirləri görməyə təhrik etməyə cəhd göstərir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Ermənistan tərəfi növbəti dəfə silahlı təxribata əl atdı və bu hərbi təxribat nəticəsində bir hərbçimiz şəhid olmuşdur. Allah ona rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq". Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatının cəza tədbiri olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır: "Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq. Heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz". Əlbəttə ki, ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaqdır.

"Biz öz torpağımızda istənilən zaman istənilən əməliyyatı apara bilərik. Sadəcə olaraq, "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda, biz yeni müharibə istəmirik. Çünki İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq. Digər arzularımıza da çatacağıq, zaman gələndə onlara da çatacağıq", - Ali Baş Komandan əlavə edib.

### "2016-CI İLDƏ APREL DÖYÜŞLƏRİNDƏ DÜŞMƏNƏ DƏRS VERDİK"

Əlbəttə ki, Zəfər tariximizə qədər Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir. "2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik"-deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir: "Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı". 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı.

### 23 SAAT 43 DƏQİQƏ

Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha bir missiyanı uğurla yerinə yetirdi. Azərbaycan Ordusu Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror tədbirlərini uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Təqribən, bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa məlum müraciətində qeyd etdiyi kimi, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir. Qeyd edək ki, üç il əvvəl sentyabr ayının 19-da Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsinin sıradan çıxması və mülki vətəndaşlarımızın həlak olması, elə həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımızın şəhid olması Azərbaycan Respublikasını öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün lokal xarakterli antiterror tədbirlərinə başlamağa vadar etdi. Cəmi 23 saat 43 dəqiqə ərzində keçirilən əməliyyatın əsas məqsədi Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi, onların hərbi obyektlərinin məhv edilməsi və Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması idi.

### "ƏGƏR VAXTİLƏ "QARABAĞ ERMƏNİSTANDIR VƏ NÖQTƏ" DEYİRDİSƏ, İNDİ "QARABAĞ AZƏRBAYCANDIR" DEYİR"

Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunmuşdur. Qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstərilmişdir. Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. Bu şəraiti yaradan isə Müzəffər Ali Baş Komandandır.

"Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb", - deyə Azərbaycan Prezidenti bildirib: "Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, öz xoşu ilə bunu etməyib, "dəmir yumruq" hesabına bunu etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı status ola bilər? Hansı dövlət atributları ola bilər? Hansı seçkilər ola bilər?"

Bu tarixi Zəfər Azərbaycan nümayəndələri ilə görüşdən dəfələrlə imtina edən Qarabağın erməni icmasını Yevlax şəhərində danışıqlar aparmağa vadar etdi. Görüşdə separatçı rejimin ləğvi, Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiya məsələləri müzakirə edilmişdi. Qarabağın erməni əhalisinə Azərbaycanın təklif etdiyi reinteqrasiya şərtləri ilə tanış olmaq, regionda qalıb-qalmamaq barədə müstəqil qərar vermək imkanları yaradılmışdır.

Qeyri-qanuni erməni ordusu Qarabağ ərazisindən tərkisilah edildi və Azərbaycan öz dövlət suverenliyini tam və qəti şəkildə bərpa etdi. "Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir. Aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirlərin nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır", - deyə Prezident bildirmişdir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olundular. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətləndi və ardıcıllıqla həyata keçirilir. Bu gün Şuşada, Füzulidə, Ağdamda və digər ərazilərimizdə görülən işlər Böyük Qayıdışımızı daha da sürətləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müasir şirkətlər niyə işçilərinə “ikinci ev” yaradır?

***“İş yeri insanın ikinci evidir” ifadəsi uzun illərdir işlədilən məşhur yanaşmalardan biridir. Lakin müasir əmək bazarında bu ifadənin nə dərəcədə reallığı əks etdirdiyi müzakirə mövzusudur. İnsan gününün əhəmiyyətli hissəsini iş yerində keçirsə də, bu, hər zaman həmin məkanı “ikinci ev”ə çevirmir. Çünki iş mühitinin insanın psixoloji rifahına, motivasiyasına və məhsuldarlığına təsiri birbaşa təşkilati mədəniyyət, idarəetmə modeli və fiziki şəraitdən asılıdır.***



SİA mövzu ilə bağlı araşdırma aparıb.

Ev insanın təhlükəsizlik, rahatlıq və mənsubiyyət hissini yaşadığı məkandır. İş yeri isə ilk növbədə peşə fəaliyyətinin həyata keçirildiyi sosial institutdur. Buna görə də hər iki məkanın funksiyaları fərqlidir. Bununla belə, beynəlxalq tədqiqatlar göstərir ki, əməkdaşların özlərini dəyərli, təhlükəsiz və rahat hiss etdikləri iş mühitlərində məhsuldarlıq, yaradıcılıq və işə bağlılıq əhəmiyyətli dərəcədə artır.

Müxtəlif ölkələrin əmək mədəniyyətləri bu baxımdan ciddi fərqlənir. Məsələn, Skandinaviya ölkələrində iş-həyat balansına xüsusi önəm verilir. İşçilərin psixoloji sağlamlığının qorunması, çevik iş saatları, məsafədən işləmə imkanları, rəhbərlə əməkdaş arasında açıq ünsiyyət və qarşılıqlı etimad korporativ mədəniyyətin əsas elementlərindən hesab olunur. Nəticədə həmin ölkələr həm işçi məmnuniyyəti, həm də əmək məhsuldarlığı göstəricilərində dünyanın ön sıralarında yer alırlar. Yaponiya və Cənubi Koreya kimi ölkələrdə isə uzun illər ciddi intizam və yüksək iş yükü üstünlük təşkil edib. Lakin son illərdə artıq bu ölkələrdə də həddindən artıq işləməyin psixoloji və fiziki sağlamlığa mənfi təsirləri nəzərə alınaraq əmək qanunvericiliyində və korporativ idarəetmədə islahatlar həyata keçirilir. Məqsəd yalnız yüksək nəticə əldə etmək deyil, həm də əməkdaşların rifahını qorumaqdır.

ABŞ və Qərbi Avropa şirkətlərinin əhəmiyyətli hissəsində isə müasir ofis konsepsiyası formalaşıb. Burada işçilərin rahatlığı üçün istirahət zonaları, yaradıcı iş məkanları, psixoloji dəstək proqramları, peşəkar inkişaf imkanları və çevik iş qrafikləri tətbiq olunur. Bir çox beynəlxalq şirkətlər hesab edir ki, işçiyə edilən investisiya şirkətin uzunmüddətli inkişafına qoyulan investisiyadır.

Bunun əksinə olaraq, bəzi müəssisələrdə sərt nəzarət sistemi, yüksək psixoloji təzyiq, təşəbbüslərin məhdudlaşdırılması və əməkdaşlara etimadsız yanaşma hələ də qalmaqdadır. Belə mühitlərdə işçilərdə peşəkar tükənmə (burnout), motivasiya azalması, emosional gərginlik və kadr axını daha çox müşahidə olunur. Elmi araşdırmalar göstərir ki, yalnız sərt intizam yüksək məhsuldarlığın təminatı hesab edilə bilməz. Təşkilati mədəniyyət də ən az fiziki şərait qədər vacibdir. Yeni əməkdaşların kollektivə adaptasiyası, rəhbərliyin ədalətli münasibəti, həmkarlar arasında qarşılıqlı hörmət və əməkdaşlıq iş yerində psixoloji təhlükəsizlik yaradır. Əksinə, mobbinq, ayrı-seçkilik və ya davamlı psixoloji təzyiq insanın iş yerinə bağlılığını zəiflədir və məhsuldarlığı aşağı salır. Bəzi araşdırmalarda qadın və kişi əməkdaşların iş mühitindən gözləntilərində müəyyən fərqlər müşahidə olunur. Qadın əməkdaşlar daha çox əməkdaşlıq, qarşılıqlı dəstək və sağlam kommunikasiya mühitinə üstünlük verdiklərini bildirirlər. Kişilər isə daha çox peşəkar inkişaf, müstəqillik və nəticəyönümlü idarəetməni ön plana çəkirlər. Bununla yanaşı, müasir insan resursları yanaşması göstərir ki, hörmət, ədalət və təhlükəsizlik hissi cinsindən asılı olmayaraq bütün əməkdaşlar üçün əsas ehtiyaclardır. Müasir idarəetmə fəlsəfəsinə görə iş yerinin “ikinci ev” adlandırılması orada evdəki kimi davranmaq anlamına gəlmir. Bu anlayış daha çox insanın özünü dəyərli hiss etdiyi, fikir və təşəbbüslərinin qiymətləndirildiyi, psixoloji cəhətdən təhlükəsiz və peşəkar inkişaf imkanlarının yaradıldığı mühiti ifadə edir.

Nəticə etibarilə, iş yerinin insanın ikinci evinə çevrilməsi yalnız yüksək əməkhaqqı və ciddi intizamla müəyyən olunmur. Bu, rəhbərliyin idarəetmə mədəniyyəti, sağlam psixoloji mühit, müasir əmək şəraiti və işçiyə göstərilən hörmətin və qayğının səviyyəsindən asılıdır. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, işçinin rifahına yatırım edən müəssisələr uzunmüddətli perspektivdə daha innovativ, daha dayanıqlı və daha rəqabətqabiliyyətli olurlar. Buna görə də müasir dövrdə uğurlu təşkilatın əsas göstəricilərindən biri yalnız maliyyə nəticələri deyil, həm də işçilərin özlərini həmin müəssisənin ayrılmaz hissəsi kimi hiss etmələridir.

***Ayşən Vəli***

# “Diplom bir vasitədir, əsas insanın bilik və bacarığıdır”

***“İşə qəbul zamanı həm diplom, həm də bilik, bacarıq və təcrübə mühüm əhəmiyyət daşıyır. Lakin burada bir məqamı xüsusilə qeyd etmək lazımdır: diplom bir vasitədir, bilik, bacarıq və təcrübə isə əmək bazarında uğur qazanmaq və işə qəbul olunmaq üçün əsas amillərdir”.***



Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Ramin Nurəliyev deyib. O bildirib ki, hər bir gənc ali təhsil müəssisəsində təhsil alarkən gələcəkdə öz ixtisası üzrə əmək bazarına daxil olmaq üçün müvafiq diplom əldə etməlidir: ”Bununla yanaşı, o, bilik və bacarıqlarını da daim inkişaf etdirməlidir. Bu amillər bir-birini tamamlayır. Yalnız diplomun olması həmin şəxsin əmək bazarına birbaşa qəbul olunacağı anlamına gəlmir.

Müasir əmək bazarının özünəməxsus tələbləri var. Keçmişdə universiteti bitirən şəxslər işlə təmin olunacaqlarına daha çox arxayın ola bilirdilər. Lakin hazırkı əmək bazarında rəqabət daha güclüdür. Bu gün gənclər öz sahələri üzrə daha hazırlıqlı, bilikli və bacarıqlı olmağa çalışmalıdırlar. İşəgötürən də təbii olaraq həmin vəzifə üçün daha uyğun və peşəkar namizədi seçir. Dövlət qurumlarında keçirilən imtahanlar da məhz daha hazırlıqlı namizədlərin müəyyənləşdirilməsi məqsədi daşıyır. Bu baxımdan gənclər həm əmək bazarının tələblərinə uyğun ixtisas seçməli, həm də seçdikləri sahə üzrə bilik və bacarıqlara dərindən yiyələnməlidirlər. Universitetdə təhsil aldıqları dövrdə təcrübə proqramlarına və könüllülük layihələrinə qoşulmaları da olduqca vacibdir. Əlbəttə, universiteti yeni bitirmiş bir gəncdən uzunmüddətli iş stajı tələb olunması bəzən məntiqli görünmür. Çünki həmin şəxs əmək fəaliyyətinə yeni başlayır. Lakin tələbə təhsil aldığı müddətdə öz ixtisası üzrə praktiki biliklərini inkişaf etdirməyə çalışmalıdır.

Məsələn, hüquq ixtisası üzrə təhsil alan tələbə yay tətili dövründə dövlət və ya özəl sektorda, hüquq şirkətlərində və ya müvafiq qurumlarda təcrübə keçməyə çalışmalıdır. Bu, ona universitetdə əldə etdiyi nəzəri bilikləri praktikada tətbiq etmək, peşənin xüsusiyyətlərini daha yaxından öyrənmək və əmək bazarına daha hazırlıqlı şəkildə daxil olmaq imkanı yaradar. Bir sıra universitetlərdə tələbələrə kifayət qədər praktiki bilik və bacarıqlar aşılanmır. Məsələn, tikinti mühəndisliyi, elektrik və elektronika mühəndisliyi kimi ixtisaslarda təhsil alan tələbələr bəzən yalnız son kursda istehsalat təcrübəsinə göndərilirlər. Lakin bu, hər zaman gözlənilən nəticəni vermir.

Beynəlxalq təhsil təcrübəsinə nəzər saldıqda görürük ki, bir çox ölkədə nəzəri və praktiki tədris paralel şəkildə təşkil olunur. Tələbələr artıq ilk kurslardan laboratoriya məşğələlərinə, praktiki dərslərə və ixtisasları üzrə müxtəlif fəaliyyətlərə cəlb edilirlər. Beləliklə, onlar yalnız son kursda təcrübə keçməyi gözləmirlər, təhsil müddəti ərzində mərhələli şəkildə peşə bacarıqlarına yiyələnirlər.

Bizdə isə bəzi hallarda praktiki tədris əsasən müəyyən bir semestrdə və ya son kursda həyata keçirilir. Bu isə təcrübənin keyfiyyəti və səmərəliliyi ilə bağlı suallar yarada bilər. Əgər ali təhsil müəssisələri əmək bazarı üçün kadr hazırlayırsa, praktiki tədrisin həcmi və keyfiyyəti artırılmalıdır. Praktiki biliklər yalnız bir semestr ərzində deyil, bütün təhsil dövrü boyunca, beynəlxalq təcrübəyə uyğun şəkildə inkişaf etdirilməlidir. Tələbə ixtisas fənlərini öyrənməyə başladığı andan həmin sahənin praktiki tərəfləri ilə də tanış olmalıdır. Məsələn, tələbə ikinci kursdan ixtisas fənlərini keçməyə başlayırsa, həmin dövrdən etibarən müvafiq praktik fəaliyyətlərə də cəlb oluna bilər.

Düşünürəm ki, bu istiqamətdə müəyyən problemlər mövcuddur və onların zamanla həll olunacağına ümid edirəm. Sualınıza qayıtsaq, işə qəbul zamanı təcrübə daha vacibdir, yoxsa diplom? Mən bunu belə ifadə edərdim: diplom bir vasitədir, əsas isə insanın bilik və bacarığıdır. Təcrübə də əmək bazarına daxil olmaq və işə qəbul olunmaq üçün çox vacibdir. Əgər bu iki amildən hansının daha üstün olduğunu seçməli olsaq, mən təcrübəni daha önəmli hesab edərdim. Çünki təcrübə insanın əldə etdiyi nəzəri bilikləri praktikada tətbiq edə bildiyini və real iş mühitinə nə dərəcədə hazır olduğunu göstərir”.

***Günel Fərzəliyeva***

# XXI əsrin yeni "Böyük Oyunu"

## Qlobal güclərin enerji və nəqliyyat dəhlizləri üzərində geosiyasi mübarizəsi



***XXI əsri əvvəlki yaradılışın kulminasiyası, bəşəriyyətin inkişaf zirvəsi adlandırırlar. Doğrudur, XX əsri də belə xarakterizə edirdilər, amma növbəti əsrdə baş verən texnoloji hadisələr bu iddianı yalanlaya bildi. XXII əsrdə nə olacaq, heç kim dəqiq bilmir, amma ehtimal etmək, proqnozlaşdırmaq mümkündür. Bizim mövzumuz texnologiya ilə deyil, dövlətlərlə, onların gələcəyi ilə bağlıdır. Bu gün dövlətlər arasındakı rəqabətin əsas predmeti artıq yalnız hərbi üstünlük deyil gələcəkdə də olmayacaq. Onda qeyri-hərbi dediyimiz nəsnənin parametrləri nədir və o bəşər övladına nə qazandıracaq, yaxud onu yox edəcək?***

İndiki dövrdə enerji resurslarının hasilatı, onların dünya bazarlarına təhlükəsiz çatdırılması və qlobal nəqliyyat dəhlizlərinə nəzarət böyük güclərin xarici siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Müasir geosiyasətdə "dəhliz diplomatiyası" anlayışı məhz bu reallıqdan doğur. Neft, qaz, elektrik enerjisi, rəqəmsal məlumat axınları və beynəlxalq ticarət marşrutları artıq iqtisadi layihələr olmaqdan çıxaraq siyasi təsir alətinə çevrilib.

Rusiyanın Ukraynaya qarşı müharibəsi, Qırmızı dənizdə təhlükəsizlik böhranı, Yaxın Şərqdə davam edən münaqişələr və Çin-ABŞ rəqabətinin dərinləşməsi enerji və nəqliyyat dəhlizlərinin strateji əhəmiyyətini daha da artırıb. Bu gün qlobal güclər faktiki olaraq marşrutlar uğrunda geoiqtisadi mübarizə aparırlar.

### Geoiqtisadiyyatın yüksəlişi

Soyuq müharibədən sonra dünya iqtisadi qarşılıqlı asılılıq mərhələsinə daxil olsa da, son on ildə geoiqtisadiyyat klassik geosiyasətin əsas alətlərindən birinə çevrilib. Dövlətlər enerji təchizatını, logistika marşrutlarını, limanları, dəmir yollarını və boru kəmərlərini milli təhlükəsizlik məsələsi kimi qiymətləndirirlər. Bu yanaşmanın əsas məqsədləri enerji təhlükəsizliyinin təmin olunması, ticarət marşrutlarının diversifikasiyası, rəqib dövlətlərin təsir imkanlarının məhdudlaşdırılması, tranzit ölkələr üzərində siyasi təsirin artırılmasıdır.

2013-cü ildə Çin tərəfindən elan edilən "Bir Kəmər – Bir Yol" (BRI) təşəbbüsü müasir dövrün ən böyük infrastruktur layihəsidir. Layihə Asiya, Avropa və Afrikanı dəmir yolları, avtomobil magistralları, limanlar, enerji kəmərləri və rəqəmsal kommunikasiya vasitəsilə birləşdirməyi hədəfləyir. Pekin üçün "Bir Kəmər – Bir Yol"un əsas məqsədləri ixrac bazarlarının genişləndirilməsi, enerji idxalının təhlükəsizləşdirilməsi, Malakka boğazından asılılığın azaldılması, Çinin qlobal iqtisadi təsirinin gücləndirilməsidir.

Çin Pakistanın Qvadar limanı, Yunanıstanın Pirey limanı, Mərkəzi Asiya dəmir yolları və Afrika limanlarına milyardlarla dollar sərmayə yatırmaqla qlobal logistika şəbəkəsi formalaşdırmağa çalışır. Bu layihələr təkcə iqtisadi deyil, həm də geosiyasi xarakter daşıyır. Vaşinqton və Brüssel isə hesab edirlər ki, Avrasiya logistikasında Çinin dominant




mövqeyi uzunmüddətli strateji risk yaradır. Bu səbəbdən 2023-cü ildə Hindistan–Yaxın Şərq–Avropa İqtisadi Dəhlizi (IMEC) təşəbbüsü irəli sürülüb. Layihənin əsas məqsədləri Hindistanı Avropa bazarına daha sürətli bağlamaq, körfəz ölkələrinin tranzit rolunu artırmaq, Çin marşrutlarına alternativ yaratmaq, enerji, rəqəmsal kabel və hidrogen infrastrukturu qurmaqdır.

Lakin Yaxın Şərqdə təhlükəsizlik problemləri, xüsusilə Qəzza müharibəsi və regional gərginliklər layihənin reallaşmasını ləngidib. Buna baxmayaraq, Avropa İttifaqı IMEC-i enerji təhlükəsizliyi və təchizat marşrutlarının şaxələndirilməsi baxımından strateji layihə hesab edir.




### Rusiya: enerji vasitəsilə geosiyasi təsir

Uzun illər Rusiya Avropanın əsas qaz təchizatçısı olub. "Şimal Axını", "TürkAxını" və digər layihələr Moskvanın Avropa siyasətində mühüm təsir vasitəsi idi. Lakin Ukrayna müharibəsindən sonar Avropa Rusiyadan enerji asılılığını sürətlə azaltmağa başladı, LNG idxalı artdı, Azərbaycan, Norveç, ABŞ və Yaxın Şərq alternativ mənbələrə çevrildi. Bunun nəticəsində Rusiya enerji ixracını Asiya bazarlarına yönəltməyə çalışır.

Rusiyanın enerji strategiyası təkcə iqtisadi gəlir əldə etməyə deyil, həm də qonşu dövlətlər və Avropa üzərində siyasi təsir imkanlarının artırılmasına xidmət edir. Bu baxımdan enerji diplomatiyası Rusiya xarici siyasətinin ayrılmaz hissəsinə çevrilmişdir. Rusiya dünya enerji bazarının əsas oyunçularından biridir. Ölkə dünyanın ən böyük




təbii qaz ehtiyatlarından birinə malikdir, neft istehsalında aparıcı ölkələr sırasındadır, kömür və nüvə enerjisi sahəsində də mühüm potensiala sahibdir.

Bu resurslar Rusiyaya həm büdcə gəlirləri qazandırır, həm də beynəlxalq siyasətdə təsir vasitəsi rolunu oynayır. Enerji ixracından əldə olunan gəlirlər uzun illər Rusiya federal büdcəsinin mühüm hissəsini təşkil etmişdir. 2000-ci illərdə Vladimir Putinin hakimiyyətə gəlməsi ilə enerji sektoru dövlət nəzarətinə daha sıx şəkildə inteqrasiya edildi. Bu dövrdə əsas məqsədlər strateji enerji şirkətlərinin dövlət nəzarətinə keçirilməsi, ixrac marşrutlarının şaxələndirilməsi, Avropa bazarında dominant mövqenin qorunması, enerji vasitəsilə siyasi təsirin gücləndirilməsi idi.

Uzun illər Avropa İttifaqı Rusiyanın ən böyük qaz bazarı olub. Bir sıra Avropa ölkələrinin qaz istehlakının mühüm hissəsi Rusiyadan idxal edilib. Bu vəziyyət enerji təhlükəsizliyi məsələlərini aktuallaşdırmış, siyasi asılılıq barədə müzakirələri artırmış, alternativ mənbələrin axtarışını sürətləndirmişdir. 2014-cü ildə Krımın ilhaqından sonra Avropa enerji təhlükəsizliyi məsələsinə daha ciddi yanaşmağa başlamışdır. 2022-ci ildə Rusiyanın Ukraynaya genişmiqyaslı hərbi müdaxiləsi enerji münasibətlərində dönüş nöqtəsi oldu.

Qərb dövlətləri Rusiyaya qarşı geniş iqtisadi sanksiyalar tətbiq etdilər, enerji idxalı azaldıldı, LNG idxalını artırdılar, Norveç, ABŞ, Azərbaycan və Yaxın Şərq ölkələri ilə əməkdaşlığı genişləndirdilər. Bunun nəticəsində Avropanın Rusiyadan qaz asılılığı əhəmiyyətli dərəcədə azaldı. Avropa bazarında mövqelərinin zəifləməsi Rusiyanı yeni bazarlar axtarmağa sövq edib.

### Orta Dəhliz: yeni geosiyasi mərkəz

Rusiyadan yan keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) son illərdə ən çox diqqət çəkən layihələrdən biridir. Marşrut Çin Qazaxıstan Xəzər dənizi Azərbaycan Gürcüstan Türkiyə Avropa. Bu dəhlizin üstünlükləri: Rusiyadan yan keçir, İran marşrutuna alternativdir, Avropa ilə Asiya arasında logistik riskləri azaldır, Azərbaycanın tranzit rolunu gücləndirir. Rusiyanın Ukraynaya müdaxiləsindən sonra Avropa şirkətlərinin bu marşruta marağı əhəmiyyətli dərəcədə artıb.

Azərbaycan Avrasiyanın ən mühüm enerji və logistika qovşaqlarından birinə çevrilib. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, TANAP və TAP layihələri, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Orta Dəhlizin əsas tranzit mərkəzi olması ölkəmizin əsas üstünlükləridir. Azərbaycan həm Avropa üçün enerji təhlükəsizliyinin təmin edilməsində, həm də Şərq-Qərb ticarətində etibarlı tərəfdaş kimi çıxış edir. Qardaş Türkiyə də özünü Avropa ilə Asiya arasında enerji habına çevirməyə çalışır. Ankara TANAP, TürkAxını, İraq və Mərkəzi Asiya enerji layihələri, Qara dəniz qaz yataqları vasitəsilə regional enerji mərkəzi statusunu gücləndirməyə çalışır.

İran coğrafi mövqeyinə görə Şimal-Cənub Nəqliyyat Dəhlizinin əsas iştirakçılarından biridir. Tehran Hindistan, Rusiya, Mərkəzi Asiya, Çin ilə logistika əlaqələrini genişləndirərək Qərbin sanksiyalarının təsirini azaltmağa çalışır.

### Enerji dəhlizləri və təhlükəsizlik

Enerji marşrutları artıq klassik iqtisadi infrastruktur hesab edilmir. Əsas risklər hərbi münaqişələr, terror təhlükəsi, dəniz boğazlarının bağlanması, kibertəhdidlər; sanksiyalar, siyasi sabitsizlikdir. Hormuz boğazı, Bab əl-Məndəb və Süveyş kanalı kimi strateji keçidlərdə yaranan hər bir böhran dünya enerji bazarına dərhal təsir göstərir.

Ekspertlərin böyük əksəriyyəti hesab edir ki, gələcək



rəqabət yalnız neft və qaz üzərində qurulmayacaq. Yeni strateji istiqamətlər əsasən yaşıl hydrogen, elektrik ötürücü xətlər, yüksək gərginlikli enerji şəbəkələri, rəqəmsal məlumat kabelləri, kritik minerallardır (litium, kobalt, nadir torpaq elementləri).

Beləliklə, "enerji dəhlizi" anlayışı tədricən "inteqrasiya olunmuş infrastruktur dəhlizi" anlayışı ilə əvəz olunur. Qlobal güclər arasında enerji və nəqliyyat dəhlizləri uğrunda rəqabət XXI əsrin əsas geosiyasi proseslərindən biridir. Çin Bir Kəmər – Bir Yo vasitəsilə Avrasiyada iqtisadi nüfuzunu genişləndirməyə çalışır, ABŞ və Avropa IMEC və digər alternativ marşrutlarla bu təsiri balanslaşdırmağa səy göstərir, Rusiya və İran isə mövcud tranzit üstünlüklərini qorumağa çalışırlar.

Bu şəraitdə Cənubi Qafqaz və xüsusilə Azərbaycan strateji əhəmiyyətini daha da artırır. Ölkənin həm enerji ixracatçısı, həm də Şərq-Qərb və Şimal-Cənub marşrutlarının kəsişməsində yerləşən etibarlı tranzit mərkəzi kimi rolu gələcək onilliklərdə də regional və qlobal geosiyasətin mühüm elementlərindən biri olaraq qalacaq.

***V.VƏLİLİ***



# İnterpol "mühacir casuslar"ın həbsləri üçün hərəkətə keçir

TƏHLİL

***Hər kəs yaxşı əməllərinə görə mükafatını, pis nümunəsinə görə isə cəzasını alır. Bu baxımdan xaricdə oturub Azərbaycanın atributlarını təhqir edən, milli varlığımıza, dövlət maraqlarımıza təhqirlər səsləndirən xaricdəki ştatlı casuslardan olan Arif Məmmədov, Sevinc Osmanqızı, Tural Sadıqlı, Elşad Məmmədov, Süleyman Süleymanlı, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Orduxan Teymurxan və digərləri bir gün gizləndikləri ölkələrdə həbs edilərək Azərbaycana gətiriləcək və layiqli cəzalarını alacaqlar. Artıq onlara qarşı Azərbaycan məhkəmələri tərəfindən qiyabi hökm çıxarılıb. Sadəcə xarici ölkələrdə gizləndikləri üçün məhkəmə qərarlarının icrası hələ ki yubanır.***

Bir qədər əvvəl Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Hüseyn Hüseynlinin sədrliyi ilə keçən prosesdə onlara qiyabi hökm oxunub. Hökmə əsasən, Qurban Məmmədovun 14 il, digərlərinin hər birinin isə 9 il müddətinə azadlıqdan məhrum edilməsi qərarı verilib. Təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 178.3.1-ci (dələduzluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 214-2,-ci ( Terrorçuluğa açıq çağırışlar), 220.2-ci (Kütləvi iğtişaş, Hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə), 281.2-ci ( Silahlı qiyam, Eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə), 320.1 -ci (Rəsmi sənədi saxtalaşdırma) maddələri ilə ittiham olunublar.

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində hazırda Almaniyada sıçan deşiyini özünə yaşayış yeri seçərək, orada gizlənən Qabil Məmmədovun barəsində 16 il azadlıqdan məhrumetmə ilə bağlı ittihamedici hökm çıxarılıb. Digər vətən xaini Trol Sadıqlı 14 il qiyabi azadlıqdan məhrumetmə cəzasına layiq görülüb. Tural Sadıqlı Azərbaycan Cinayət Məcəlləsinin dələduzluq, terrora açıq çağırışlar və başqa maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib. O, prokurorluğun rəsmi çağırışlarına gəlmədiyi üçün iş materialları qiyabi icraatda baxılması üçün məhkəməyə göndərilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə T.Sadıqlı verilmiş ittihamlarla təqsirli bilinib.

### İnterpol Avropada əməliyyatlar keçirməyə hazırlaşır

Təbii ki, Azərbaycan qanunvericiliyində qiyabi məhkəmə prosesi qanunvericilikdə nəzərdə tutulmuş hüquqi mexanizmdir. Məhkəmə hökmü mütləq icra olunacaq. Baxmayaraq ki, cəzaya məhkum edilən şəxslər xarici ölkələrdə gizlənirlər. Onların gizləndikləri ölkələrdə saxlanılaraq Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil verilməsi beynəlxaq hüququn tələbidir. Əks halda, Almaniya, Fransa və digər Avropa ölkələri, o cümlədən ABŞ beynəlxalq hüququ kobud şəkildə pozan dövlət kimi tanına bilərlər. Ona görə də, onların ekstradisiyası ilə bağlı lazımi bütün hüquqi addımlar atılacaq.

"Siyasi mühacir" adı altında Avropada məskunlaşan şəxslər kəşfiyyat orqanları tərəfindən himayə olunurlar. Ancaq beynəlxalq qanunlara qarşı çıxmaq kəşfiyyat orqanlarının da imkanı xaricindədir. Azərbaycan qanunvericiliyinə görə, barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarında olduqda qiyabi hökmün və ya digər yekun qərarın icra olunması üçün bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlər görülür. Beləliklə, müasir beynəlxalq insan hüquqları sistemi qiyabi icraatı hüquqi istisna kimi tanıyır. Azərbaycan CPM-nin 467 və 467-ci maddələrinə əsasən qiyabi icraat yalnız təqsirləndirilən şəxs istintaqdan və ya məhkəmədən qəsdən yayınarsa, Azərbaycan ərazisindən kənarda olduqda və ya axtarışda olduqda həyata keçirilə bilər. Qiyabi icraatın açılması müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərlik edən prokurorun yuxarı prokurorla razılaşdırılmış təqdimatı əsasında məhkəmə tərəfindən həyata keçirilir.

Qısaca onu qeyd etmək olar ki, xaricdəki "söyüş blogerləri" haqqında çıxarılan qiyabi hökmlər tam qanunauyğundur və beynəlxalq hüquqa əsaslanır. İnterpolun Azərbaycan hüquq –mühafizə orqanlarının təqdim etdiyi sənədlər əsasında söyüş söyən məxluqların hansı ölkədə gizlənmələrindən asılı olmayaraq saxlanmaları üçün tədbirlərini sürətləndirəcəyi şübhəsizdir. Daha doğrusu, artıq İnterpolun Fransa, Almaniya, Niderland büroları əməliyyatlar keçirməyi planlaşdırırlar. Bu əməliyyatlara xüsusi xidmət orqanları mane olmağa çalışırlar. Lakin onların cəhdləri uğursuzluğa düçar olacaq.

Məlumdur ki, Azərbaycan İnterpol xətti ilə İnterpolun Baş Katibliyinin məlumat bazalarına çıxış imkanına malikdir və real vaxtda məlumat mübadiləsi aparılır. Qanuna görə, əgər şəxs Azərbaycanda cinayət törədib və ölkəni tərk edibsə, istintaq orqanı DİN vasitəsilə İnterpol Mərkəzi Bürosuna müraciət edir; MMB həmin məlumatı İnterpolun Baş Katibliyinə göndərir; Baş Katiblik yoxlayıb "qırmızı bülleten" yayır; Digər ölkələr həmin şəxs aşkarlanarsa, onu müvəqqəti saxlayıb Azərbaycana məlumat verir. İnterpol qanunlarına görə, axtarışda olan şəxs xarici dövlətdə aşkarlanarsa, həmin ölkənin İnterpol Milli Bürosu onun barəsində məlumat verir. Əgər "qırmızı bülleten" mövcuddursa, həmin ölkə şəxsi müvəqqəti saxlaya bilər.Saxlanma barədə məlumat dərhal Azərbaycandakı MMB-yə ötürülür. Azərbaycan tərəfi Baş Prokurorluq vasitəsilə həmin ölkənin səlahiyyətli orqanına rəsmi ekstradisiya tələbi göndərir.

Bu tələbdə aşağıdakılar olur:

Şəxs barəsində ittiham və ya hökm;

Həbs qərarının surəti;

Cinayət hadisəsinin təsviri və hüquqi əsaslar;

Şəxsin şəxsiyyətini təsdiqləyən sənədlər.

İnterpol MMB bu sənədlərin operativ ötürülməsini və qarşı tərəflə əlaqəni təmin edir. Xarici dövlətin məhkəməsi və ya ədliyyə orqanı Azərbaycan tələbinə baxır. Bu zaman şəxsin əməlində cinayət əməli cinayət hesab edilirsə, və təslimetmə üçün hüquqi əsas varsa, o zaman həmin dövlət ekstradisiyaya razılıq verir.

### Planlaşdırılan həbslərdən erməni lobbisi narahatdır

Bu arada erməni lobbisi də həbslərin reallaşmaması üçün cəhdlər göstərir. Hətta Avropa Erməni Hərəkatı satqın və xəyanətkar azərbaycanlı mühacir casusların həbslərinin qarşısını almaq üçün geniş fəaliyyətə başlayıb. Erməni lobbisinin Fransa, Almaniya, Niderland polisinə şirnikləndirici vədlər verdiyi, hətta Aram Ambasumyan adlı erməni sahibkar vasitəsi ilə maliyyə vəsaitləri ödənildiyi bildirilir.

Təbii ki, erməni lobbisinin fəallıq göstərməsi səbəbsiz deyil. Antimilli ünsürlər erməni lobbisi ilə eyni mövqedən çıxış edirlər. Tural Sadıqlı, Məhəmməd Mirzəli, qabil Məmmədov, Elşad Məmmədov və digərləri Xankəndidəki separatçıların neytrallaşdırılmasına qarşı atılan addımları "blokada" adlandırır, hadisələri erməni tezisləri kontekstində təqdim edirdilər. Onlar Avropa Parlamentinin Azərbaycan barədə qəbul etdikləri separatçı qətnamələri "öz xidmətlərini nəticəsi" kimi qəbul etmişdilər. Bununla yanaşı, M.Mirzəli mütəmadi olaraq erməni informasiya resurslarında Azərbaycana qarşı çıxışlar edir. Tural Sadıqlının isə Nürnberqdə erməni diasporunun ofisini dəfələrlə ziyarət etdiyinə dair məlumatlar var. 2023-cü ildə "söyüşçülərin" Berlində "Ermənilərin Mərkəzi Şurası"nın (Zentralrat der Armenier in Deutschland e.V. – ZAD) Qarabağdakı separatçıları dəstəkləyən aksiyasında iştirakı da əsas faktlardan biridir.

Xaricdəki "söyüş müxalifət"nin tərkibində erməni lobbisinin, Avropanın Frank Şveber kimi nasistlərin maraqlarını yerinə yetirən məxluqlarla yanaşı fars-molla rejiminin mənafeyindən çıxış edən ünsürlər də var. Onlar əsasən keçmiş "Müsəlman Birliyi Hərəkatı"nın Avropaya gedən üzvləridir. Berlində Kansler İdarəsinin önündə keçirilən son aksiyanın məhz Tehrandakı mollaların dəstəyi və maliyyəsi ilə baş tutduğuna dair məlumatlar mövcuddur. Bu aksiyanın "Müsəlman Birliyi Hərəkatı"nın Almaniyaya gedən üzvləri – Orxan Ağayev, Ələmdar Bünyadov və digərləri tərəfindən təşkil edilməsi, Tale Bağırzadənin isə onlara "xüsusi təşəkkür məktubu" ünvanlaması fars-molla rejimin izini açıq şəkildə göstərir. Bununla yanaşı Məhəmməd Mirzəli, Trol Sadıqlı tapşırıqlar əsasında fars-molla rejiminin maraqlarına xidmət edən ünsürlərə informasiya dəstəyi göstərirlər. Misal üçün, Tehranda Azərbaycan səfirliyinə qarşı terror aktı törədilən zaman Tural Sadıqlı İranın mövqeyini müdafiə edir, dini-klerikal dairələrin tezislərindən çıxış edirdi.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Avropada "siyasi mühacir" adı altında yaşayan ünsürlər Azərbaycana qarşı xain planların icraçılarıdır. Onların həbs olunması və cəzalandırılması insanların istəyi və tələbidir. Çünki erməniyə, farsmolla rejiminə, nasistlərə xidmət etməklə "söyüş müxalifəti" özlərini alçaltmaqla yanaşı, azərbaycanlı adına qismən də olsa hörmətsizlik gətirmiş olurlar. Unutmaq olmaz azərbaycanlı olmaq böyük fəxarət, qürur mənbəyidir. O azərbaycanlılardır ki, türk-müsəlman tarixində ilk dəfə olaraq xristian dünyasının hərbi, siyasi, maliyyə cəhətdən dəstəklədiyi Ermənistanın dizini yerə gətirməklə, torpaqlarının işğaldan azad edilməsinə nail oldu.

***İ.ƏLİYEV***

# 150 balla seçilə biləcək ixtisasların siyahısı açıqlanıb

*Ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlərin müsabiqədə iştirak edə biləcəyi ixtisasların siyahısı açıqlanıb. SİA xəbər verir ki, bu barədə Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında məlumat verib.*

Onun sözlərinə görə, I ixtisas qrupu üzrə meliorasiya mühəndisliyi, texnologiya müəllimliyi və ekologiya mühəndisliyi ixtisaslarında, 2026-cı ildən etibarən isə kompüter mühəndisliyi, informasiya texnologiyaları, qida mühəndisliyi, elektrik və elektronika mühəndisliyi, logistika və nəqliyyat texnologiyaları mühəndisliyi, mexanika mühəndisliyi, radiotexnika və telekommunikasiya mühəndisliyi ixtisaslarında ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən, ikinci mərhələ üzrə balı isə 50-dən az olmayan abituriyentlər buraxılacaqlar. Dövlət sifarişi üzrə bu göstəricilər müvafiq olaraq 200 və 100 baldır.

Bildirilib ki, aqromühəndislik, aqronomluq, balıqçılıq, meşəçilik, şərabçılıq, torpaqşünaslıq və aqrokimya, yerquruluşu və daşınmaz əmlakın kadastrı, eləcə də zoomühəndislik ixtisaslarında əvvəlki illərdə olduğu kimi həm dövlət sifarişi, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində 150 bal tələbi qüvvədə qalır.

Məleykə Abbaszadə qeyd edib ki, II ixtisas qrupu üzrə marketinq, biznesin idarə edilməsi, turizm bələdçiliyi və turizm işinin təşkili ixtisasları ilə yanaşı, 2026-cı ildən mühasibat, dövlət və bələdiyyə idarəetməsi, maliyyə, iqtisadiyyat, menecment, beynəlxalq ticarət və logistika, həmçinin nəqliyyatda servis ixtisaslarında da eyni bal tələbi tətbiq ediləcək.

O əlavə edib ki, III ixtisas qrupu üzrə muzey, arxiv işi və abidələrin qorunması, sosial iş və regionşünaslıq ixtisaslarında, IV ixtisas qrupu üzrə isə ekologiya ixtisasında ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı



150-dən və ikinci mərhələ üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edə biləcəklər. Bundan başqa, IV ixtisas qrupu üzrə bağçılıq və tərəvəzçilik, baytarlıq təbabəti, bitki mühafizəsi, su bioehtiyatları və akvakultura ixtisaslarında həm dövlət sifarişi, həm də ödənişli əsaslarla qəbul zamanı da həmin bal tələbi tətbiq olunacaq.

***Günel Fərzəliyeva***

# Quraqlıq dünyanı məhv edir: meşələr yanır, insanlar zəhərlənir

***World Weather Attribution (WWA) konsorsiumunun mütəxəssislərinin hesablamalarına görə, qlobal istiləşmə İspaniyada isti, quru və küləkli hava ehtimalını ən azı 20 dəfə, Fransada isə iki dəfə artırıb. Bu tapıntı, qitənin isti və ölümcül yayının səbəbinin neft, qaz və kömürün yandırılması nəticəsində yaranan çirklənmə olduğunu deyir.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

WWA-nın əvvəlki araşdırması göstərib ki, 20.000 insanın ölümünə səbəb olduğu təxmin edilən iyun ayının sonunda baş verən güclü isti dalğası karbon çirklənməsinin yaratdığı əlavə istilik olmadan baş verə bilməzdi. Başqa bir araşdırma, iqlim böhranının yaratdığı istiliyin Avropada torpaqları qurutduğunu aşkar edib. 2025-ci ildə baş verən meşə yanğınlarının tədqiqatları da hadisələrin həddindən artıq isti hava ilə əlaqələndirib.

Bu il Qərbi Avropadakı meşə yanğınları, rütubətli keçən qış və yazla da əlaqədardır. Belə ki, bitki örtüyünün böyüməsi sürətləndi, sonra isti hava onları qurutdu və yanğınlar üçün yanacaq rolunu oynadı. Qlobal istiləşmə nəticəsində Avropada qış daha rütubətli, yay isə daha quru və isti keçir. Meşə yanğınları atmosferə böyük miqdarda zəhərli tüstü buraxdı. Fransa Milli Sənaye Ətraf Mühiti və Riskləri İnstitutunun rəsmisi Auqustin Kolette deyir ki, tüstü hava çirkliliyini 20 dəfəyə qədər artırdı və yanğınlardan 400 km məsafədə olduqca pis hava şəraiti hakimdir.

Hər il təxminən 1,5 milyon insanın meşə yanğınlarının tüstüsü səbəbindən ömrünün qısaldığı təxmin edilir. İyulun əvvəlindən bəri İspaniya və Fransada şiddətli meşə yanğınları baş verib, insanlar həlak olub, minlərlə ev dağılıb və 300.000-dən çox insan öz yurdundan qaçmağa məcbur olub. Böyük Britaniya və Yunanıstanda da böyük meşə yanğınları baş verib və bu prosesdə üç yanğınsöndürənin həyatını itirdiyi bildirilir. BMT-nin iqlim üzrə rəhbəri Saymon Stil deyir: "Avropa meqayanqları göstərir ki, iqlim pozulub, nəticədə yaranan həddindən artıq istilik və quraqlıq meşə yanğınlarını dağıdıcı milli fəlakətə çevirir. Bəşəriyyətin külli miqdarda kömür, neft və qaz yandırmağa davam etməsi bu şəraiti daha təhlükəli, meqayanqları isə daha ölümcül və dağıdıcı edir".

BMT rəsmisi deyir ki, həll yolu birdir: "Bütün ölkələr qalıq yanacaqlardan bərpa olunan enerji mənbələrinə daha sürətli keçməli və insanları pisləşən iqlim təsirlərindən, meşə yanğınlarından, meqafırtınalardan, daşqınlardan, qida istehsalına zərbə vuran quraqlıqlardan qorumalıdır".

Qeyd edək ki, 3 avqust tarixində Yunanıstan – Afina yaxınlığında və ölkənin qərb hissəsində güclü meşə yanğınları baş verib. Yanğınların söndürülməsi zamanı iki yanğınsöndürmə helikopteri toqquşub və iki ekipaj üzvü həlak olub. Güclü külək səbəbindən yaşayış məntəqələri təxliyə edilib, 100-dən çox ev yanıb. Eyni tarixdə Fransada, ölkənin cənubundakı Var bölgəsində iri meşə yanğınları davam edir. Küləyin istiqamətini dəyişməsi alovun yayılmasını çətinləşdirib, yanğınsöndürənlər isə nəzarəti saxlamağa çalışırlar.

Avqustun 2-dən İspaniya yanır. Mərkəzi və cənub bölgələrində meşə yanğınları ilə mübarizə davam edir. Bir sıra ərazilərdə alov nəzarət altına alınsa da, bəzi ocaqlar hələ də aktivdir. Elə həmin tarixdən ABŞ-da, xüsusilə Vaşinqton, Oreqon, Aydaho və Yuta ştatlarında genişmiqyaslı meşə yanğınları qeydə alınıb. Vaşinqton ştatında təxminən 60 min nəfər təxliyə edilib, yüzlərlə tikili yanıb. ABŞ üzrə aktiv iri meşə yanğınlarının sayı son 10 ilin orta göstəricisini keçib. Kanadada, Britaniya Kolumbiyası əyalətində Pear Lake və Bradley Creek yanğınları böyüməyə davam edir. Tüstü havanın keyfiyyətini pisləşdirib və bəzi yaşayış məntəqələrində təxliyələr həyata keçirilir.

Bütün bu hadisələr göstərir ki, hazırda ən kritik meşə yanğınları əsasən Cənubi Avropa ərazisində, Yunanıstan, Fransa, İspaniyada, habelə Şimali Amerikada (ABŞ və Kanada) müşahidə olunur. Nüfuzlu Reuters, Associated Press və digər beynəlxalq agentliklərin məlumatına görə, Yunanıstan, Fransa, İspaniya, ABŞ və Kanada hazırda ən ciddi yanğınlarla mübarizə aparan ölkələr sırasındadır.

***Lalə Mehralı***

# Hərbi canilər haqqında ədalətli hökm veriləcək



***Tarixi ədalət ondan ibarətdir ki, heç zaman insanlığa, bəşəriyyətə qarşı törədilən cinayətlər yerdə qalmır. Gec-tez qatillər layiqli cəzalarını alırlar. Misal olaraq, nasistlərin liderlərinin mühakimə ilə bağlı yaradılan Nürnberq prosesi, keçmiş Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı vasitəsi ilə Slobodan Miloşeviçin və Radovan Karaciçin mühakimə edilmələrini göstərmək olar.***

İyirmi birinci əsrdə Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda Ermənistan vətəndaşları olan hərbi canilərin törətdikləri qətliamlar, soyqırımı aktları, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayət əməlləri ilə bağlı Nürunberq məhkəməsi yaradıldı. Məhkəmə qarşısına Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərləri çıxarıldı. Proses zamanı az qala bütün dünyanın media orqanlarının diqqəti Azərbaycana yönəldi. Müxtəlif erməni təşkilatları, qərəzli ölkələrin bəd niyyətli hakimiyyətlərinin nümayəndələri ölkəmizə təzyiq etməyə və bu yolla hərbi canilərin azadlığına nail olmağa cəhdlər göstərdilər. Ancaq Azərbaycan dövləti, azad, demokratik məhkəmələr hər cür təhdidi, əsassız ittihamları rədd etdilər. Bununla bir daha Azərbaycan dövləti ədalətin carçısı, haqqın, hüququn dəstəkçisi olduğunu nümayiş etdirdi. Təsdiq etdi ki, Xocalıda, Şuşada, Malıbəylidə, Ağdamda, Cəbrayılda, Kəlbəcərdə, Zəngilanda və digər işğal edilmiş ərazilərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, qətliamlar cavabsız qala bilməzdi və ədalətli məhkəmə qərarının qəbul edilməsi ilə qalmadığını göstərdi. Hələ 2024-cü il fevralın 26-da Xocalıda Soyqırımı Memorialının təməlatdı mərasimində Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə demişdir: "Mənfur düşmən qanlı soyqırımı törətmişdir, xocalılıları öz doğma torpağından didərgin salmışdır. Üstəgəl Xocalının tarixi adını dəyişdirməyə çalışırdı və azərbaycanlıların evlərinə separatçıları, düşmənləri yerləşdirmişdi, o cümlədən xarici ölkələrdən. Görün, xalqımıza qarşı nə qədər böyük və çirkin cinayət törədilmişdir və yenə də deyirəm, dünya buna biganə qalmışdır. Ermənistan və onun havadarları hesab edirdilər ki, onları heç kim cəzalandırmayacaq. Onlar səhv etmişdilər, bu gün də səhv edirlər. Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir. Ermənistan hakimiyyəti və erməni separatçıları baş verənləri – həm ikinci Qarabağ müharibəsini, həm də Qarabağ bölgəsində antiterror tədbirlərini unutmamalıdır".

Bakı Hərbi Məhkəməsinin çıxartdığı ədalətli hökmdən sonra düşünmək olardı ki, erməni əsilli hərbi canilər qərarı sakit qarşılayacaq və qəbul edəcəklər. Ancaq belə olmadı. Erməni həyasızlığı bu zaman da özünü göstərdi. Onlar Azərbaycanda azad məhkəmə-hüquq sisteminin olmasından suiistifadə edərək, Bakı Hərbi Məhkəməsinin qərarından yuxarı instansiya məhkəməsinə şikayət etdilər. Bu dəfə də Azərbaycan məhkəməsi müraciətə səbirlə yanaşdı.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

Bakı Apellyasiya Məhkəməsində apellyasiya şikayətləri üzrə məhkəmə baxışı keçirilib. Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Sonuncu məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər. Məhkəmə iclasının əvvəlində məlumat verilib ki, prosesdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları da müşahidəçi qismində iştirak edirlər.

Təqsirləndirilən şəxslər replika hüququndan da istifadə ediblər. Bako Sahakyan replika hüququndan istifadə edərək bildirib ki, o, birinci instansiya məhkəməsinin hökmünün ləğv edilməsini və barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Digər təqsirləndirilən şəxslər Vasili Beqlaryan, Arkadi Qukasyan, Levon Mnatsakanyan, Madat Babayan, Qurgen Stepanyan, David Manukyan, Davit İşxanyan, David Babayan, Melikset Paşayan, Qarik Martirosyan, Davit Allahverdiyan, Levon Balayan və Erik Qazaryan, eləcə də onların bəzilərinin müdafiəçiləri də replika hüququndan istifadə edərək ittiham tərəfinin çıxışlarına münasibət bildiriblər. Müdafiəçilər əsasən hüquqlarını qoruduqları şəxslər barəsində birinci instansiya məhkəməsinin hökmünün ləğv edilməsini və bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş ediblər. Təqsirləndirilən şəxslər isə öz arqumentlərini diqqətə çatdıraraq ittiham olunduqları əməllər üzrə özlərini təqsirli bilmədiklərini qeyd ediblər. Bununla da bütün təqsirləndirilən şəxslərin replika hüququndan istifadə hüququ başa çatıb. Daha sonra zərərçəkmiş şəxslərin nümayəndələri çıxış edərək birinci instansiya məhkəməsinin hökmünün qanuni və əsaslı olduğunu, iş üzrə bütün faktların məhkəmə araşdırması zamanı sübuta yetirildiyini bildiriblər. Bu səbəbdən onlar həmin hökmün dəyişdirilmədən qüvvədə saxlanılmasını məhkəmədən xahiş ediblər.

Ardınca söz dövlət ittihamını müdafiə edən prokurorlara verilib. Onlar qeyd ediblər ki, birinci instansiya məhkəməsinin hökmü qanuni və əsaslıdır, təqsirləndirilən şəxslərin apellyasiya şikayətlərində göstərilən dəlillər isə onun ləğvi və ya dəyişdirilməsi üçün əsas yaratmır. Bu səbəbdən apellyasiya şikayətlərinin təmin edilməməsini və hökmün dəyişdirilmədən saxlanılmasını xahiş ediblər. Məhkəməyə sədrlik edən hakim Elmar Rəhimov verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə baxışının başa çatdığını elan edib. Məhkəmə kollegiyası qərar qəbul etmək üçün müşavirəyə gedib.

***İ.ƏLİYEV***

TƏHLİL

SON SƏHİFƏ
SƏS
4 avqust
2026-cı il

# "İkinci əl" avtomobil bazarında niyə durğunluq yaranıb?



***Azərbaycanda "ikinci əl" avtomobil bazarında son dövrlər aktivlik azalıb. Alıcılar avtomobil seçərkən daha ehtiyatlı davranır, satıcılar isə mövcud qiymətləri qorumağa çalışırlar. Maraqlıdır ki, bazarda durğunluq olsa da, qiymətlərdə ciddi dəyişiklik hiss olunmur. Bəs bu vəziyyət nədən qaynaqlanır və yaxın aylarda bazarda canlanma gözlənilirmi?***

Hazırda "ikinci əl" avtomobil bazarında durğunluğun əsas səbəbi nədir? Qiymətlərin yaxın aylarda dəyişməsi gözlənilirmi? Alıcılar bu dövrdə avtomobil alarkən nələrə diqqət etməlidirlər?

Məsələ ilə bağlı nəqliyyat eksperti Aslan Əsədov SİA-ya açıqlamasında bildirib ki, avtomobil bazarında durğunluğun yaranmasının əsas səbəblərindən biri nəqliyyat vasitələrinin ölkəyə idxalının əvvəlki illərlə müqayisədə daha asan və müxtəlif yollarla həyata keçirilməsidir: "Yəni bu gün istənilən şəxs xaricdən istədiyi avtomobili fərdi qaydada ölkəyə idxal edə bilir. Digər mühüm məqam ondan ibarətdir ki, hazırda ikinci əl avtomobil bazarında həm çeşid, həm də rəqabət xeyli artıb. Dünyanın müxtəlif ölkələrindən Azərbaycana fərqli markalarda və modellərdə avtomobillər gətirilir. Vətəndaşlar isə əsasən 8–10 yaşlı, lakin texniki vəziyyəti yaxşı olan avtomobillərə üstünlük verirlər. Yəni əsas meyar münasib qiymət və keyfiyyətdir.

Bundan əlavə, ölkə daxilində ikinci əl avtomobil bazarına olan etibar da müəyyən qədər azalıb. Ənənəvi avtomobil bazarları-



*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*

nın rolu əvvəlki kimi deyil. Hazırda sosial şəbəkələr, xüsusilə TikTok, eləcə də müxtəlif elektron elan platformaları avtomobil alqı-satqısında əsas vasitələrdən birinə çevrilib.

Avtomobil bazarındakı durğunluğun nə vaxt başa çatacağını indidən dəqiq demək çətindir. Hələlik bu barədə konkret proqnoz vermək tezdir. Ümid edirik ki, qiymətlər daha sürətlə artmayacaq. Bildiyimiz kimi, hər il avtomobillərin yaş həddi ilə bağlı tələblər tətbiq olunur, yeni avtomobillərin idxalı təşviq edilir və dövlət avtomobil parkının yenilənməsi istiqamətində müxtəlif güzəştlər həyata keçirir. Gözlənilir ki, növbəti illərdə də bu istiqamətdə yeni təşviq mexanizmləri tətbiq olunacaq. Ümid edirik ki, görülən tədbirlər nəticəsində avtomobil bazarında sağlam rəqabət formalaşacaq və vətəndaşlara daha sərfəli şərtlərlə keyfiyyətli avtomobillər təqdim olunacaq".

***Arzu Qurbanlı***

## ELAN

**Kimsəsiz və Aztəminatlı Ailələrin Uşaqlarına Sosial Mənəvi Dəstək İctimai Birliyinin möhürü itdiyi üçün etibarsız sayılır.**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Alqı-satqı müqaviləsi bağlayarkən bu məqamlara mütləq diqqət edin!

"Alqı-satqı müqaviləsi, mülkiyyət hüquqlarının bir şəxsdən digərinə keçməsini təmin edən əsas hüquqi sənəddir. Bu müqavilə hüquqi münasibətlərin şəffaf və etibarlı şəkildə tənzimlənməsi üçün vacib hesab olunur". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. Onun sözlərinə görə, əsasən daşınar və daşınmaz əmlakın, xidmət və məhsulların alqı-satqısında geniş tətbiq edilir: "Hüquq sahəsinə maraqlı olanlar üçün bu müqavilənin mahiyyəti, əsas prinsipləri və tətbiq qaydaları xüsusi əhəmiyyət kəsb edir.

**Alqı-satqı müqaviləsi zamanı nəyə diqqət yetirilməlidir?**

Daşınmaz əmlak (mənzil, torpaq sahəsi, qaraj və s.) satılarkən aşağıdakı sənədlər tələb olunur:

* Əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd — yəni çıxarış (kupça).

* Əmlak üzərində yüklülüyün və ya həbsin olub-olmaması barədə Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin verdiyi arayış. Qeyd olunan arayış alqı-satqı zamanı notarius tərəfindən verilir.

* Nikah haqqında şəhadətnamə — mülkiyyətçi nikahdadırsa, onun.

* Daşınmaz əmlakın satılmasına ərin (arvadın) notariat qaydasında təsdiq edilmiş razılığı.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 32.1-ci maddəsinə əsasən, nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayıldığından, birgə nikah dövrü ərzində alınan əmlak satılarkən mütləq tərəflərin hər ikisinin razılığı olmalıdır.

* Yaşayış evində, mənzildə, bağda və bağ evində yaşayış yeri üzrə qeydiyyatda olan yetkinlik yaşına çatmış bütün ailə üzvlərinin notariat qaydasında təsdiq edilmiş razılığı.

Belə razılıq qeydiyyatda olan şəxslər tərəfindən verilmədikdə, mülkiyyətçi qeyd olunan şəxslərin mülkiyyətində olan əmlakdan istifadə hüququnun itirilməsi ilə bağlı məhkəməyə müraciət edə bilər. Həmin şəxslərin mülkiyyətdən istifadə hüququna məhkəmə tərəfindən xitam verildikdən sonra artıq alqı-satqı zamanı onların razılığına zərurət olmur. Məhkəmə qeydiyyatda olan mülkiyyətçinin ailə üzvlərinin (Mənzil Məcəlləsinin 30.1-ci maddəsinə əsasən mülkiyyətçinin ailə üzvləri onun arvadı (əri), habelə onun uşaqları və valideynləri nəzərdə tutulur) istifadə hüququna xitam verərkən mülkiyyətçi tərəfindən bunun əvəzində həmin şəxslərə kompensasiya ödənilməsini müəyyən edə bilər. Daşınmaz əmlakın alqı-satqısı müqaviləsi bağlananda həm alıcı, həm də satıcı şəxsən iştirak edə, yaxud hər iki tərəfin yerinə etibarnaməyə əsasən onların nümayəndələri iştirak edə bilər".



***Lətifə Musayeva***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**